**Ceyran Mahmudova**
Sənətşünaslıq üzrə elmlər doktoru, dosent
Ü.Hacıbəyli adına Bakı Musiqi
Akademiyasının professoru, Azərbaycan
e-mail: ceyran64@mail.ru

# AZƏRBAYCANDA MÜASİR DÖVRDƏ MUĞAM SƏNƏTİNİN İNKİŞAFINDA TELEVİZİYA MUĞAM MÜSABİQƏLƏRİNİN ROLU

***Açar sözlər:*** *muğam, ənənə, televiziya, müsabiqə, xanəndə.*

XX əsrdən başlayaraq, televiziya insan həyatında getdikcə daha böyük rol oynayır. Televiziya məlumatlandırır, əyləndirir, maarifləndirir. Məhz sonuncu funksiya müasir Azərbaycan cəmiyyəti üçün ən aktual və vacib sahələrdən birini təşkil edir. Elmi konfrans və toplantılarda mədəniyyət və incəsənətin rolu haqqında müxtəlif elmi və publisist məruzələrin sayı çox olsa da, şifahi ənənəli musiqinin əsrlər boyu məhz xalq tərəfindən yaşadılması sayəsində bugünədək gəlib çıxması şübhəsizdir. Hal-hazırda isə geniş dinləyici kütlələri ilə başlıca ünsiyyət vasitəsi kimi məhz televiziya çıxış edir.

Dünya miqyasında müxtəlif səpkili yarışmalar mövcuddur. Klassik musiqi, pop,folk, caz musiqisi və s. tipli müsabiqələrin əksəriyyəti televiziya vasitəsilə işıqlandırılır, böyük qismi isə televiziya auditoriyasının birbaşa iştirakına hesablanmışdır. Çünki miqyasına görə televiziya auditoriyası ilə heç bir başqa toplantı rəqabət apara bilməz.

Təqdirəlayiq haldır ki, XXI əsrdə Azərbaycanda bu baxımdan gözəl innovasiya tətbiq olunaraq, Televiziya Muğam müsabiqələrinin keçirilməsinə start verilmiş, illər ötdükcə, bu müsabiqə artıq müntəzəm keçirilən və gözlənilən hadisəyə çevrilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə, Azərbaycan Mədəniyyəti Fondunun layihəsi əsasında, Mədəniyyət və Turizm Nazirliyinin iştirakı və Azərbaycan Dövlət Televiziyasının təşkilatçılığı ilə 2005-ci ildən başlayaraq mütəmadi olaraq keçirilən televiziya muğam müsabiqələri Azərbaycan muğamının təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox uzaqlarda, bütün qitələrdə böyük maraq doğurmasına və təbliğinə

səbəb olmuşdur. Azərbaycan Televiziyasının elektron ünvanına xarici ölkələrdən daxil olan məktublar, telefon əlaqələri bunu sübut edir.

Muğam yarışmalarının televiziya vasitəsilə nümayışı bu qədim,əsrlər boyu yaşamış sənətin bugünün tələblərinə uyğun, daha baxımlı və cəlbedici formada təbliğ edilməsinə səbəb olur. Sözsüz ki, bu ənənənin qorunaraq, eyni zamanda, onu müasir formada təqdim etmək zərurəti meydana çıxır. Sadəcə olaraq muğam konsertlərinin keçirilməsi və nümayişi ilə bu cür effekt əldə etmək, əlbəttə ki, mümkün olmazdı. Yarışma formatı hamıya yaxşı tanış və doğma olan muğam janrının inkişafına yeni impuls, yeni nəfəs gətirmək imkanı verir.

Televiziya muğam yarışmalarının başlıca müsbət cəhətlərindən biri də odur ki, onların nümayişi canlı yayımda, peşəkar muğam ustadları və alimlərinin münsif kimi iştirakı ilə, heç bir kənar müdaxilə olmadan, sms səslər toplanılmadan baş verir. Bu da yarışmanın obyektiv keçirilməsini şərtləndirən əsas amillərdəndir.

Müsabiqə iştirakçıları öz çıxışlarında ya sərbəst seçilmiş qəzəllərdən, ya da, və bu əksər hallarda baş verir, təşkilat komitəsinin seçdiyi şairin qəzəllərindən istifadə edir. Füzuli, Nəsimi, Nəbati, Seyid Əzim Şirvani, Natəvan, Əliağa Vahid və bir çox digər ustad qəzəlxan şairlərin poeziyasına müraciət olunur.

İştirakçıların ifa etdiyi muğam parçalarının seçimi və hazırlanması haqda bir neçə söz demək istərdik. Hər turda fərqli muğam və təsniflər ifa olunmalıdır ki, bu da yarışmada yeknəsəglikdən uzaqlaşmağa imkan verir. Müsabiqə televiziya ilə bağlı olduğundan, hər turda eyni muğamın bir neçə ifaçı tərəfindən təqdim edilməsinə yol verilmir.

Müsabiqədə gənc ifaçılar yarışdıqlarından, onların çıxışlarına muğam ustadları – müəllimləri tərəfindən nəzarət olunur. Ümumiyyətlə, Televiziya muğam müsabiqələrinə qeyri-peşəkarlar deyil, artıq müəyyən səviyyədə – musiqi məktəblərində, musiqi kollecində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və ya Milli Konservatoriyada muğam ustadlarından dərs almış gənc xanəndələr buraxılır. Muğam sənətinin əsrlər boyu məhz ustad-şagird ünsiyyəti vasitəsilə, şifahi şəkildə ötürülməsini nəzərə alaraq, yarışmaya bu mərhələyədək müəyyən xüsusi biliklərə yiyələnmiş hazırlıqlı şəxslər buraxılır.

Digər tərəfdən, bu müsabiqədə iştirak onlar üçün sənətlərini inkişaf etdirmək baxımından gözəl imkanlar açır. Artıq yuxarıda göstərildiyi kimi, münsiflər heyətinə bugünki gün muğam sənəti sahəsində ən çox biliyə, nüfuza malik sənətkarlar, sözün əsl mənasında muğam biliciləri, uzun illər muğamın tədrisi və ifaçılığı sahəsində əzmlə çalışan şəxslər cəlb edilir. Onların arasında Əlibaba Məmmədov, Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Mənsum İbrahimov və başqa tanınmış muğam bilicilərini qeyd etmək olar.

Bu səbəbdən, hər turda çıxış gənc xanəndələr üçün bir növ imtahana çevrilir. Bununla yanaşı, ustad sənətkarların dəyərli məsləhətləri, iradları həm iştirakçılar, həm də tamaşaçılar üçün böyük əhəmiyyət kəsb edir. Bəzən zalda əyləşən dinləyicilərin zövqü ilə münsiflərin qərarı arasında fərq olsa da, əksər hallarda adi dinləyicilərlə münsiflər yekdillik nümayiş etdirir və tamaşaçı alqışlarının məntiqi nəticəsi kimi ustadlar tərəfindən müsbət rəylər və yüksək qiymətlər verilir.

Məlum olduğu kimi, müğamda şifahi ənənə əsasında dildən-dilə, müəllimin şagirdə şifahi tədrisi vacib amildir. Yarışmanın ilk günü iştirakçılar müəllimlərinin adlarını bildirir, münsiflər heyəti də, öz növbəsində, ən yaxşı çıxışlara qiymət verərkən, xanəndəni öyrədən müəllimi alqışlayır. Bu da muğam ənənəsində mövcud olan müəllim və sagird arasında sıx əlaqələrin müasir dövrdə də mövcudluğunu və davam etdiyini bir daha təsdiq edir.

Hər həftə yarışmanın bir turu baş tutur, iştirakçılar iki qrupa bölünür, buna uyğun olaraq tur iki gün keçirilir. Bu da, yenə də, televiziya yayımının xüsusiyyətlərindən irəli gəlir. Tədqiqat göstərir ki, hər yarışma axşamında təxminən 2,5–3 saatlıq canlı yayım tamaşaçılara təqdim edilir ki, bunun da təxmnən 2/3-ni bilavasitə muğam ifası təşkil edir.

Televiziya muğam müsabiqələrinin artıq illər boyu formalaşmış qaydaları mövcuddur. Bütün ölkə ərazisində keçirilən ilkin dinləmələrdən seçilmiş iştirakçılar ilk yarışma turlarında ardıcıl olaraq xalq mahnıları və təsniflər təqdim edir. Bu zaman onların tərkibində muğam parçaları da oxunur. Bu, muğam ifaçılıq praktikasında formalaşmış və aprobasiyadan keçmiş formasıdır. Daha sonrakı mərhələdə ifaçılar müxtəlif zərbi-muğamlar ifa edir. Zərbi-muğamlar

tam şəkildə,ixtisarsız oxunur. Müsabiqənin bir turu məhz zərbi-muğamların ifasına həsr olunur. Bu turda "Qarabağ şikəstəsi", "Mənsuriyyə", "Kəsmə şikəstə", "Heyratı", "Ovşarı", "Arazbarı" və digər zərbi muğamlar səsləndirilir.

Lakin müsabiqənin adından da bəlli olduğu kimi, burada əsas meyar kimi məhz muğamın düzgün ifa olunması əsas götürülür. Bu baxımdan hətta xalq mahnıları və ya təsniflə birgə oxunan zaman da məhz muğam parçaları əsas müsabiqə predmeti kimi nəzərdən keçirilir.

Yarışmada muğamın ifası bir sıra spesifik xüsusiyyətlərə malikdir. Belə ki, televiziya yayımının məhdud formatı, habelə iştirakçıların sayı (ilk mərhələdə 20 iştirakçı çıxış edir, hər seçim turunda onların sayı azalır) muğamları dəstgah formasında bütöv şəkildə icra etməyə imkan vermir. Bu səbəbdən turlarda muğam dəstgahının bir neçə şöbəsi və təsnifin (təsniflərin) səslənməsi standart ifa norması kimi qəbul olunur. O cümlədən müsabiqə turlarında kiçik həcmli muğamların icrasına da rast gəlmək olar. Onların ifası ilə bağlı detallar aşağıda nəzərdən keçiriləcək.

Tərəfimizdən müxtəlif illərdə keçirilmiş bir çox yarışma günlərinin təhlili aparılmışdır. Araşdırma göstərir ki, adətən müsabiqə iştirakçılarının çıxışları 12–17 dəqiqə arasında olur. Belə çıxış gənc iştirakçılara öz bacarıqlarını kifayət qədər nümayiş etdirmək imkanı verir. İndi də müsabiqədə ifa olunan muğamlar üzərində daha ətraflı dayanaq.

Muğam şöbələrinin səslənməsinin özündə də müsabiqə şərtləri ilə bağlı bəzi nüanslar nəzərə çarpır. Məlumdur ki, muğam dəstgahları dəramət, bərdaşt, mayə, digər muğam şöbələrinin təsnif və rənglərlə ardıcıllaşması nəticəsində yaranan kompozisiyalardır. Televiziya muğam müsabiqəsində dəstgah yuxarıda göstərilən səbəblər üzündən bütövlükdə səsləndirilmədiyinə görə, bir neçə muğam şöbəsinin təsnif və rənglərlə birgə ifası praktikası tətbiq olunur. Dinləyicilərdə yanlış təsəvvür yaratmamaq üçün, əksər hallarda hər hansı müəyyən təsnif və şöbələrin ifası elan edilir, yəni, dəstgah haqqında burada heç bir halda söz getmir.

Dəstgahların böyük həcmli şöbələri – məsələn "Mayə", "Şur-Şahnaz", "Bayatı-İsfahan", "Manəndi-Müxalif" kimi şöbələr tam, dəstgahda olduğu həcmdə oxunarsa, onlardan sonra gələn şöbələrin

sayı az olmalıdır və ya bu mərkəzi şöbələr qısaldılmış formada ifa olunmalıdır. Bəzi hallarda, şöbələr geniş şəkildə təqdim edildikdə, onların sayı az da ola bilər – məsələn, təsnif – "Manəndi-Müxalif" – "Segah".

Qəbul olunmuş sistemə əsasən ifa, bir qayda olaraq, bəm – orta – bəm və ya orta – zil – orta registrlərin əhatə olunması ilə qurulmalıdır.

İfa olunan mugham şöbələri müxtəlif kombinasiyalarda təqdim olunur – məsələn, "Mayə" və ondan sonra bir-iki şöbə icra olunur, daha sonra mayəyə ayaq edilir və ifa tamamlanır. Şöbələr arasında təsnif oxunur, diringi və ya rəng çalınır.

İstisna hal kimi yarışmada muğam dəstgahının, demək olar ki, bütövlükdə səsləndirilməsinə rast gəlinir. Məsələn, 2011-ci ildə keçirilən müsabiqədə, 01.03.2011-ci il tarixində baş tutmuş turda iştirakçı Alış Həmzəyev tərəfindən "Humayun" aşağıdakı şəkildə interpretasiya olunmuşdu:

"Mayəyi-Humayun" – təsnif – "Mövləvi" – "Şüştər" – təsnif – "Tərkib" – "Bidad" – "Kiçik məsnəvi".

Professor R.Zöhrabovun "Azərbaycan muğamları" kitabında göstərildiyinə istinadən demək olar ki, A.Həmzəyev tərəfindən, demək olar ki, "Humayun"un bütün əsas şöbələri ifa olunmuşdur [Zöhrabov: 232–234].Yeganə fərq "Feli" şöbəsi əvəzində "Mövləvi"-nin səsləndirilməsidir. "Humayun" muğam dəstgahında şöbələrin sayı çox olmadığına görə,onun ifasını məhdud zaman çərçivəsində həyata keçirmək mümkün olmuşdur ("Humayun" xanəndə tərəfindən 17 dəqiqə ərzində oxunmuşdur).

Ümumiyyətlə, "Humayun" Azərbaycan muğam dəstgahları arasında nisbətən daha qısa həcmə malik olduğundan, müsabiqədə ona müraciət edən xanəndələrin sayı daha çox olur. Məsələn, həmin il keçirilən müsabiqədə "Humayun" Səbinə Ərəbli, Zeynəb Quliyeva tərəfindən də oxunmuşdur:

Səbinə Ərəbli: "Mayəyi-Humayun" – təsnif – "Tərkib" – "Bidad" – təsnif – ayaq.

Zeynəb Quliyeva: "Mövləvi" – "Şüştər" – "Tərkib" – "Bidad" – təsnif.

Lakin, göstərilmiş şöbələrə nəzər saldıqda, onların sayının daha az olması, dəstgahın yalnız bir neçə şöbəsinin təqdim edildiyini

görmək olar. Eyni muğam dəstgahının yuxarıda göstərilmiş hissələrinin ifası müxtəlif yarışma günlərinə təsadüf etmişdir.

Müsabiqədə muğamların digər ifa variantında çıxış “mayə”dən başlamır, sıralanmaya əsasən ondan sonra səslənən şöbə oxunur. Buna nümunə olaraq Məmməd Nəcəfovun oxuduğu “Bayatı-Şiraz”ı göstərmək olar – əvvəl “Bayatı-Şiraz” muğamının “Nişibi-fəraz” şöbəsi oxunur, sonra “Mayə”. Ardıcıllıq belə davam edir:

Təsnif, “Bayatı-isfahan”, rəng, “Zil-Bayatı-Şiraz”, rəng, “Xavəran” və Bayatı-Şiraza ayaq.

Beləliklə görürük ki, “Bayatı-Şiraz” muğamının heç də bütün şöbələri burada səslənmir, məsələn, “Üzzal”, “Dilrüba” kənarda qalır. Onlar ifa olunmamasının səbəbləri, zənnimizcə, yuxarıda göstərilən zaman məhdudiyyəti ilə bağlıdır.

Digər yarışma iştirakçısı – Səbinə Ərəbli “Mirzə-Hüseyn Segahı”nı belə ifa etmişdir:

“Manəndi-Müxalif” – “Mayə” – təsnif – “Segah” – rəng – “Segah” – “Mübərriqə” – ayaq.

Bu halda da görürük ki, dəstgahın ilk böyük şöbəsi olan “Mayə” ənənəvi olaraq əvvəldə deyil, ikinci pozisiyada səsləndirilir. Bu cür ifa, əsasən bəm – orta – bəm prinsipi ilə yanaşma üçün səciyyəvidir, çünki, artıq qeyd olunduğu kimi, bu yarışma çərçivəsində bütün şöbələrin əhatə olunması qeyri-mümkündür.

Məlumdur ki, dəstgahlarda “Bərdaşt” mühüm rol oynayır, “Mayə”nin səsləndirilməsini bir növ hazırlayır. Lakin vaxt məhdudiyyəti və çıxış zamanı mümkün qədər çox muğam şöbəsini ifa edərək səs imkanlarını nümayiş etdirmək arzusunu rəhbər tutaraq, iştirakçılar, təəssüf ki, “Bərdaşt” bölmələrini nadir hallarda öz çıxışlarına daxil edir. “Bərdaşt”ı öz ifasında səsləndirən xanəndələrdən biri Elsevər Muradov olmuşdur ki, o “Zabul” muğamının ifasını məhz “Bərdaşt”dan başlamışdır:

“Bərdaşt” – “Zabul-Segah” – “Mayə” – təsnif – “Manındi-maxalif” – “Segah”.

Məmməd Nəcəfov da təqdim etdiyi “Rast” dəstgahının bir neçə şöbəsinin ifasını “Bərdaşt”la başlayır:

“Bərdaşt” – “Mayə” – “Üşşaq” – “Hüseyni” – təsnif – “Şikəstei-fars” – təsnif – “Əraq”.

Belə təqdimat, sözsüz ki, muğamın qavranılmasını daha dolğun edir.

Digər ifa variantlarında "Mayə" şöbəsinin səsləndirilməsi, ümumiyyətlə nəzərdə tutulmur. Burada xanəndələr öz çıxışlarına dəstgahın digər vacib şöbələrindən başlayır. Bu halda səslənmədə orta – zil – orta prinsipinə riayət olunur. Buna nümunə olaraq bir neçə uğurlu çıxışı göstərmək olar:

Mirələm Mirələmov "Orta Mahur": "Hüseyni" – "Mahur" – rəng – "Üşşaq" – "Hüseyni" – rəng – "Vilayəti" – təsnif.

Məmməd Nəcəfov "Şur": Təsnif – "Şur-Şahnaz" – "Bayatı-türk" – rəng – "Bayatı-türk"(davamı) – "Şikəstei-fars" – rəng – təsnif – "Şur"a ayaq.

Nigar Şabanova "BayatıŞiraz": "Bayatı-İsfahan" – təsnif – "Zil-Bayatı-Şiraz" – "Xavəran" – rəng – "Üzzal" – "Dilrüba" – ayaq.

Sonuncu ifa haqqında bir neçə söz demək istərdik. Burada "Bayatı-Şiraz" dəstgahının orta və zil şöbələri ifa olunmuşdur. Belə ardıcıllığın təqdim olunmasında məqsəd xanəndənin zil registrdə səsinə hakim olmaq bacarığını nümayiş etdirməkdən ibarətdir. Adətən, geniş səs diapazonuna malik xanəndələr belə çıxışlara üstünlük verir. Zil registrdə mükəmməl ifa etmək münsiflər tərəfindən yüksək qiymətləndirilir və xanəndənin peşəkarlığından xəbər verir.

Kiçik həcmli muğamların interpretasiyası üzərində də dayanmaq istərdik. Adətən özündə 3–5 şöbəni cəmləşdirən kiçik həcmli muğamlar müsabiqədə ifaçılıq praktikasında olduğu şəkildə, və ya kiçik ixtisarlarla səsləndirilir. Məsələn, "Qatar" muğamı iştirakçı Nigar Rəhimova tərəfindən ixtisarlar olmadan, aşağıdakı şəkildə oxunmuşdur:

"Qatar" – rəng – "Üşşaq" – təsnif – "Zil Qatar".

"Şahnaz" muğamına müxtəlif illərdə keçirilmiş müsabiqələrdə tez-tez müraciət olunub. İki gənc xanəndə – Kamilə Nəbiyeva və Ariz Hüseynovun ifa etdiyi "Şahnaz" muğamlarını təqdim edirik. Onlar eyni şöbələrdən ibarətdir :

"Şahnaz" – rəng – "Dilkəş" – "Kürdü" – təsnif – "Şəddi-Şahnaz".

Yarışmada həmçinin "Rahab" və "Dəşti" kiçik həcmli muğamlarının ifasına da tez-tez təsadüf olunur.

Yuxarıda göstərilən nümunələrdən aydın olur ki, müsabiqədəki əksər çıxışlarda, orta hesabla təxminən 4–6 şöbə səsləndirilir ki, onların arasında təsnif və rənglər çalınıb-oxunur. Qeyd etmək

lazımdır ki, ilk turlarda iştirakçıların sayı çox olduğuna görə, onların çıxışı 10 dəqiqə ilə məhdudlaşdırılır. Buna uyğun olaraq, cəmi iki, maksimum üç şöbə və təsnif oxumaq mümkün olur. Yuxarıda göstərilən ifaların əksəriyyəti isə müsabiqənin sonrakı, daha çox səkkizinci turdan başlayan çıxışlarına aiddir, çünki məhz o turlarda xanəndələr vaxt baxımından daha geniş həcmli ifalar nümayiş etdirmək şansı qazanır.

Müsabiqənin müsbət cəhətlərindən biri kimi, gec-gec ifa olunan muğam nümunələrinin yenidən həyata qaytarılmasını göstərmək olar. Belə ki, ikinci muğam müsabiqəsində televiziya yarışmalarında ilk dəfə olaraq xanəndə Abgül Mirzəliyev tərəfindən "Şirvan şikəstəsi" ifa olundu. Şikəstənin bu növü vaxtilə Aşıq Şakirin repertuarına daxil olmuşdur, daha sonra onu məşhur xanəndə Alim Qasımov ifa etmişdir. Muğam müsabiqəsində geniş dinləyici kütlələrinə təqdim olunduqdan sonra "Şirvan şikəstəsi" yenidən ifaçıların repertuarına daxil olundu və üçüncü müsabiqədə artıq xanəndə Mirələm Mirələmovun ifasında uğurla səsləndi.

Müsabiqənin muğam ifaçılığı sahəsinə verdiyi töhvələr şübhəsizdir. Kiçik zaman kəsiyində gənc xanəndələr muğamla bağlı biliklərini, səs imkanlarını, tələffüzü, səhnə davranışı kimi keyfiyyətləri nümyiş etdirməlidir. Televiziya vasitəsilə müsabiqəni seyr edən geniş tamaşaçı kütləsi qarşısında ilk dəfə layiqli çıxış etmək iddiaçıdan böyük iradə və bacarıq tələb edir. Bununla bağlı olaraq bir mühüm cəhəti də vurğulamaq istərdik. Müsabiqə iştirakçılarını ənənəyə uyğun olaraq, milli musiqi alətlərindən ibarət ansambl müşayiət edir. Son illərin müsabiqələrində bu şərəfli missiyanı tarda Sahib Paşazadə və kamançada Toğrul Əsədullayev həyata keçirir. Muğamın ifasında sazəndə dəstəsinin rolu böyük və danılmazdır. Yuxarıda adları çəkilən musiqiçilər, habelə ansambla daxil olan digər milli musiqi alətlərində – ud, balaban, qanun və nağarada ifa edən musiqiçilər müsabiqə turlarına hazırlıq prosesində hər bir iştirakçı ilə saatlarla məşq edir, istedad və bacarıqları sayəsində onların yarışma günüdə səhnədə müvəffəq çıxışlarının uğurunu təmin edir.

Təsadüfi deyil ki, münsiflər öz nitqlərində çox zaman ansamblın üzvlərinə, xüsusilə onun rəhbəri, tarzən Sahib Paşazadəyə müraciət edərək, ayrı-ayrı iştirakçıların ifası ilə bağlı öz fikirlərini bildirir. Bu

da muğam ənənəsində xanəndə ilə yanaşı, onu müşayiət edən sazəndə qrupunun da böyük rolunun bir daha ön plana çəkilməsini göstərir.

Əlbəttə, müsabiqədə iştirak edən gənclərin interpretasiyası artıq püxtələşmiş xanəndələrdən fərqlənir. Bu ilk növbədə muğamın ifa üsulları, şöbədən-şöbəyə keçid, zəngulələrin yerinə yetirilməsi, səsi zil registrdə tənzimləmək bacarığı və s. kimi keyfiyyətlərlə bağlıdır. Bunlar münsiflər heyəti tərəfindən hər çıxışdan sonra ən çox qeyd olunan iradlardandır. Sözü gedən qüsurları öz ifalarında bir həftəyə düzəldə bilən xanəndələr sonrakı turlarda iştirak etmək haqqı qazanır və nəticə etibarilə qalib olur.

Münsiflər heyəti hər bir iştirakçının çıxışını diqqətlə izləyərək, onlara sonda öz irad və təkliflərini bildirir. Bu fikirləri bir neçə əsas istiqaməti əhatə edir. İlk növbədə burada repertuar seçimi önəmli cəhət kimi qeyd edilir. Münsiflər dəfələrlə vurğulayır ki, hər bir xanəndə öz səs imkanlarından çıxış edərək repertuar seçməlidir. Səsi daha çox aşağı və orta registrlərdə yaxşı səslənən gənc xanəndələrin zil oxuma tələb olunan dəstgahlara, zərbi-muğamlara müraciət etməsi düzgün deyil, çünki bu oxuma əvəzinə daha çox qışqırma ilə nəticələnə bilər.

Digər iradlar zəngulələrlə bağlı olur. Yarışmada elə iştirakçılar olur ki, zəngülələrin ifasına çox aludə olur, onlardan yerli-yersiz istifadə edir. Bu da, əlbəttə, münsiflər tərəfindən haqlı narazılıqlara səbəb olur.

Göstərilən iradlar arasında xüsusilə muğam kadensiyaları – "ayaqlar" haqqında bir neçə söz demək istərdik. Hər bir musiqi əsərində onun sonluğu xüsusi əhəmiyyət kəsb edir. Muğam sənətində də "ayaq" adlandırılan belə kadensiyaların rolu çox önəmlidir. Çünki, muğama yekun vurmaqla yanaşı, ona necə yekun vurmaq məsələsi ön plana keçir.

Muğam şifahi sənət olduğundan, onun öyrədilməsi prosesində hər bir muğamın tamamlayıcı mərhələsi – ayaqların şagird tərəfindən düzgün mənimsənilməsi vacibdir. Heç də təsadüfi deyil ki, müsabiqə turlarında münsiflər heyətinin iştirakçılara tutduqları iradlardan ən başlıcası məhz ayaq, yəni kadensiyalarla bağlı olur. Çünki muğamı hətta ən yüksək səviyyədə icra edən xanəndə onu layiqli şəkildə yekunlaşdırmasa, mayə – tonika pərdəsinin tam

bərqərar olmasını çatdıra bilməsə, onun ifası müsbət qarşılana bilməz. Bu muğamın ifası ilə bağlı başlıca tələblərdən biridir.

Təbiidir ki, gənc xanəndələrdən heç də hamısı bu tələblərin öhdəsindən kifayət qədər ustalıqla gələ bilmir. Bu baxımdan da münsiflər heyətinin qeydləri, iradlarının ifadan sonra söylənilməsi, milyonlarla tamaşaçının gözü önündə keçirilən ustad dərsləri kimi dəyərləndirilir.

Digər tərəfdən, televiziyanın imkanları vasitəsilə müsabiqədə uğurla çıxış etmiş gənclər bir anda tanınır, muğam bilicilərinin əsl sevimlisinə çevrilir. Bir neçə il öncə bu müsabiqədə çıxış edən 10 yaşlı Elməddin İbrahimovu yada salmaq kifayətdir.

Müsabiqənin yetirmələri olan gənc xanəndələr – Güllü Muradova, Ehtiram Hüseynov, Səbinə Ərəbli, Sərxan Bünyadzadə və başqaları Azərbaycanda muğam sənətinin inkişafında mühüm rol oynayır, ölkəmizi bir çox beynəlxalq müsabiqə, festival və tədbirlərdə ləyaqətlə təmsil edir. Müsabiqələrin televiziya vasitəsilə bütün dünyaya yayımlanması Azərbaycanın milli-mənəvi dəyərlərini bu gün də qoruyub saxlaması, qədim muğam sənətini yaşatdığını bir daha sübut edir.

Televiziya muğam müsabiqələrinin nümayişi zamanı qədim muğam ənənələrinin müsabiqə çərçivəsində nə dərəcədə qorunub-saxlanılması ilə əlaqədar bəzi suallar yaranır. Çünki artıq yuxarıda da qeyd olunduğu kimi, müsabiqədə muğam sənətinin zirvəsi olan dəstgah tam çəkildə icra olunmur, onun ayrı-ayrı şöbələri təsnif və rənglərlə birgə təqdim olunur. Bununla bağlı fikrimizi bildirmək istərdik.

Zənnimizcə, muğam televiziya müsabiqələrinin keçirilməsi ilə bağlı qarşıya qoyulan məqsəd ilk növbədə gənc ifaçıların üzə çıxarılması və muğam sənətinin təbliği ilə bağlıdır. Hər iki məqsədə tam şəkildə nail olunmuşdur. Ötən illər ərzində Heydər Əliyev Fondunun ardıcıl və düşünülmüş şəkildə keçirilən layihələri sayəsində Azərbaycanda və onun hüdudlarından kənarda muğam sənətinə olan maraq durmadan artır.

Televiziya muğam müsabiqələri də bu strategiyanın bir parçası kimi öz missiyasını müvəffəqiyyətlə yerinə yetirir. Televiziya ekranları qarşısında toplanaraq saatlarla muğam dinləyən çoxminlik auditoriyanın mövcudluğu artıq heç kimdə şübhə doğurmur. Bu da

müxtəlif təbəqə və nəsillərin nümayəndələri arasında muğam sənətinə olan sevgi və marağın daha da artmasına səbəb olur. Bu layihə çərçivəsində ənənə və novatorluq birləşərək, Azərbaycanın milli sərvəti olan muğamın müasir dövrün məhsulu olan müsabiqə çərçivəsində, yenilənmiş şəkildə yaşatmağa imkan verir. Muğam sənətinə marağın getdikcə artmasında televiziyanın imkanlarından istifadə olunması, eyni zamanda, ənənənin bünövrəsini təşkil edən ustad-şagird münasibətlərinin başqa prizmadan – münsif- iştirakçı nöqteyi-nəzərindən yeni səviyyəyə çıxarılmasının özü novator ideya kimi dəyərləndirilməlidir.

Deyilənlərə yekun olaraq göstərilən müsabiqələrin böyük əhəmiyyəti və faydasını bir daha vurğulamaq istərdik. Əsasını maarifçilik ideyası təşkil edən bu uğurlu layihə, sözsüz ki, yüksək qiymətləndirilməlidir. Müasir texnologiyalar, kompyuter aləminin məişəti zəbt etdiyi bir dönəmdə insanların aylar ərzində mütəmadi olaraq canlı müsabiqə turlarını maraqla izləməsi, geniş tamaşaçı kütləsinin diqqətinin cəlb edilməsi artıq böyük uğurdan xəbər verir. 2015-ci ildə də növbəti VI Televiziya muğam müsabiqəsinin keçirilməsi bu sahədə aparılan işlərin davamlı və müvəffəq olduğunu bir daha sübut edir.

Şübhə etmirik ki, istər muğamsevərlər, istərsə də peşəkar musiqiçilər tərəfindən böyük, sönməyən maraq doğuran bu müsabiqə Heydər Əliyev fondu, Azərbaycan Mədəniyyəti Fondunun dəstəyi ilə hələ neçə nəsil gənc xanəndələrin tanınmasında, muğamın təbliği və yayılmasında öz xeyirxah missiyasını davam etdirəcək.

Bu da muğam sənətinin Azərbaycanda təkcə peşəkar musiqiçilər arasında deyil, geniş xalq kütləri arasında da böyük sevgi ilə yaşadılmasının daha bir sübutudur.

**İstifadə edilən ədəbiyyat:**

Zöhrabov R. Azərbaycan muğamları. 2013.

**Jeyran Mahmudova**
Prof., D.Sc., U.Hajibeyli Baku
Music Academy, Azerbaijan
e-mail: ceyran64@mail.ru

# THE ROLE OF THE NATIONAL TV MUGAM COMPETITIONS IN THE DEVELOPMENT OF THE ART OF MUGAM

Abstract

***Keywords:*** *mugam, traditions, television,competition, khanende.*

Mugam competitions held under auspices of Heydar Aliyev Foundation starting from 2005 have played a great role in the development of mugam in Azerbaijan and in the raising of new generation of mugam singers. Shorter mugams, zerbi-mugams and tesnifs in live presentation by the young performers are being evaluated by the professional jury. The competitions is acting as some kind of real-time mugam lessons and hence contributng to wider promotion of the genre. Noteworthy to say, the mugam pieces are presented in the accompaniment of the national musical instruments.

The recurrence of the competetition and its live broadcasting gives opportunity to millions of viewers to get acquainted once again with the world of ancient mugam, moreover that opens up opportunities to newcomer mugam singers. From this point of view TV mugam competitions play significant promotional and educational roles. Thanks to live broadcasting the ancient traditions are getting widely distributed and thus are causing great interest in Azerbaijan and abroad alike. Wide horizons in developing the artistic career are opening for the competition winners. All of the above opens wide perspectives for the future development of mugam.